# XƏZƏR UNİVERSİTƏSİNDƏ 26-CI MƏZUNLUQ MƏRASİMİ

**Martın 28-də Xəzər Universitəsinin "Dünya" konsert salonunda həm bakalavr, həm də magistr proqramları üzrə 26-cı məzunluq mərasimi keçirildi. Mərasim, ənənəyə görə, sözləri Hamlet İsaxanlının, musiqisi Vasif Adıgözəlov və Ramiz Mustafayevin olduğu "Xəzər Universitəsinin himni" ilə açıldı.**

**Mərasimin aparıcıları – Humanitar və sosial elmlər fakültəsinin ikinci kurs tələbələri Elnarə Əliyeva və Orxan Abdullayev tədbiri açaraq, iştirakçılara müraciət etdilər:**

– Hörmətli rektor, mehriban dekanlar, sevimli müəllimlər, əziz tələbələr və zəhmətkeş valideynlər! Elm, təhsil, bilik, mədəniyyət, səadət, məhəbbət dənizi olan Xəzər Universitəsinin səhnəsindən sizləri salamlayırıq.

Tələbəlik illəri... Kimin üçünsə bu illər yeni başlayır, kimin üçünsə artıq xatirəyə çevrilir. Elə bizi bu məclisə gətirən də gəncliyin qaynar, ehtiraslı, duyğulu baharı olan tələbəlik illəri ilə vidalaşan, bu gündən ali təhsilli mütəxəssis kimi müstəqil həyata qədəm qoyan gənclərimiz – məzunlarımızdır. Deməli, gənclərin qəlbinə işıq, könlünə sevinc gətirən "Xəzər"imizdə 26-cı məzunluq mərasimidir.

Hər bir şəxsin ali təhsil almaq üçün seçdiyi ali məktəb onun həyatında çox böyük rol oynayır. Nə xoş sizlərə ki, biliyinizin təkmilləşdirilməsini, dünyagörüşünüzün genişləndirilməsini, həyata baxışlarınızın dəyişdirilməsini Xəzər Universitəsinə etibar etdiniz. Və hər birinizin simasından aydın hiss olunur ki, buna heç də peşman deyilsiniz. Deyirlər ali təhsil insanın gələcək həyatının qapılarını açmaq üçün bir açardır. Siz artıq bu açara sahibsiniz. Bu münasibətlə sizin hər birinizi ürəkdən təbrik edirik!

İndi isə, ənənəvi olaraq, təbrik üçün sözü Xəzər Universitəsinin qurucusu və rektoru Hamlet müəllim İsaxanlıya veririk.



**HAMLET İSAXANLININ** çıxışı:

***– Hörmətli müəllimlər, tələbələr, qonaqlar! Düz 18 il əvvəl, 1991-ci il martın 18-i idi. Mənə Nazirlər Kabinetindən zəng etdilər ki, Baş Nazir universitetin yaradılması haqqında qərara qol çəkib. O zaman qərarda universitetimizin adı belə idi: "İngilis dilli Azərbaycan Universiteti". O vaxta qədər isə biz təxminən 6 ay hazırlıq işi aparmışdıq. Bu hazırlıq işi çoxsaylı görüşlərdən, müzakirələrdən, sənədləşdirmələrdən ibarət idi. Və bu qərarın çıxması sadəcə bir kağız üzərində hökumətin bir icazəsi idi. Universitetin yaradılması isə uzun sürən bir proses olacaqdı. Əslində, o həmişə davam eləyəcək, çünki universitet yaradılması, onun böyüməsi, genişlənməsi, güclənməsi heç zaman dayanmayan bir işdir. Amma təsəvvür eləyin ki, o adicə bir kağız parçası bizə bir işıq oldu və biz təxminən 1 il ərzində yenə də müəyyən mənada hazırlıq işləri apardıq, iyirmi tələbə götürdük, onlardan sonra 19-u qaldı. Bir nəfər gərginliyə dözə bilmədi. Bizim 19 tələbə ilə məşğul olan 7 müəllimimiz var idi. İndiki Azadlıq prospektindəki bir binada bizə yer verdilər; inzibatçılar üçün 1, tələbələr üçün 2 sinif otağı.***

***Amma bu iş bizim gözlədiyimizdən çox-çox çətin bir iş imiş. Ən əsas çətinlik o idi ki, həm hökumət işçiləri, həm də müxtəlif universitet rəhbərləri arasında bizim bu yeni yaradılan univer-***



siteti təhlükə kimi görənlər əmələ gəldi. Və biz böyük maneələrlə üzləşdik.Universiteti yaşatmaq üçün, yüksəltmək üçün ordan köçməli olduq. Əhmədlidə bir bağça binasının bir hissəsini icarəyə götürdük və tədrisə başladıq. Roza xanım, İsmət müəllim, Firəngiz xanım o vaxt ilk müəllimlərimizdən idilər, indi burda əyləşiblər.

Bu universiteti qurmağımızın, əlbəttə, bir sıra ideyaları var idi. Onlardan ən birincisi o idi ki, biz dünyada necə gözəl universitetlərin olduğundan, həmin universitetlərdə yüksək səviyyəli, böyük alimlərin dərs deməsindən, səriştəli mütəxəssislər yetişdirmələrindən xəbərdar idik. Arzumuz o idi ki, biz də Azərbaycanda buna bənzər bir iş görək; bizim də uşaqlar təxminən həmin universitetlərdə olan proqramlar üzrə, kitablar üzrə oxuya bilsinlər, yaxşı mütəxəssis kimi yetişsinlər; bunun üçün biz müəllimləri diqqətlə seçək, müəllimlərin özləri gedib o Qərb dünyasını görsünlər. Görsünlər ki, bu işlər necə olur. Bu qeyri-adi dərəcədə çətin işin öhdəsindən müəyyən mənada gələ bildik. Doğrudan da, qısa bir zaman ərzində bizim işə götürdüyümüz bütün müəllimlər gah Amerikaya, gah Avropaya səyahət eləməyə başladılar, universitetlərə getdilər, orada dərs dedilər, dərs götürdülər. Və bizim müəllim, tələbə və inzibatçılarımızın hamısının bir yerdə gücü ilə universitet yaranmağa başladı. Bir ildən sonra elmi şuramızın qərarı ilə adını dəyişdirərək Xəzər Universitəsi elədik.



Biz istəyirdik ki, dünyadakı universitetlərlə əlaqələrimiz olsun. Bunlar doğrudan da oldu. Avropa, Amerika, Yaxın Şərq, Uzaq Şərq universitetləri ilə əlaqələr qurduq. Məsələn, mən özüm elə bu günlərdə Yaponiyadan qayıtmışam. Yaponiyanın 6 məşhur universitetində - 3 dövlət, 3 özəl universitetində görüşlər keçirdik. Biri ilə artıq



müqavilə imzaladıq. O biriləri ilə də müqavilə imzalayırıq. Yəni ali məktəb harada yerləşməsindən asılı olmadan bir dünya ali məktəbi olmalıdır. Yəni dünyada gedən işlərdən xəbərdar olmalıdır. Dünyadan gələn tələbələri oxutmağı bacarmalıdır, tələbəni dünyanın başqa universitetlərində oxumağa göndərməyi bacarmalıdır. Və hər şey ciddiyyət üzərində, keyfiyyət üzərində, həqiqət üzərində, ədalət üzərində qurulmalıdır.

Bir məqsədimiz də bu idi ki, bizim universitetdə hər kəs əməyinə görə layiq olduğunu alsın, yəni birinci növbədə tələbələrdən söhbət gedir. Yəni biz tələbələrin yaxşı oxuması üçün maksimum şərait yaradaq. Qəti surətdə onların biliyinin qiymətləndirilməsində tərəfkeşlik olmasın. Əks halda, heç keyfiyyətli təhsildən söhbət eləməyin mənası olmaz. Yəni, müasirlik və ciddilik! Bu ikisini biz

*yanaşı qoymağa çalışdıq. Və ümid eləyirəm ki, buna nail olduq.*

*Tədricən bizim məzunlar çox gözəl yerlərdə işləməyə başladılar. Bir müddət keçəndən sonra universitəmiz, doğrudan da, şöhrət qazanmağa başladı; birinci növbədə ictimaiyyət, sonra isə işə götürən şirkətlər, xaricdəki universitetlər arasında, siyasi dairələrdə, hər yerdə Xəzər Universiteti tanınmağa başladı. Və tanınmasının ən əsas səbəblərindən biri bizim məzunlarımız oldu. Çünki məzunlarımız çalışdıqları sahələrdə yaxşı işləsələr, ciddi işləsələr, orda gözəl işlər görə bilsələr, onların ünvanına yaxşı sözlər söylənilsə, bunun ən azı bir tərəfi Xəzər Universitəsinə aid olacaq. Yox əgər nəyisə düz eləməsələr,*




*yaxşı işləməsələr, onda da deyəcəklər ki, bax, filan universitetin məzunu gəldi bu cür pis işlər gördü. Və biz bilirik ki, bizim məzunlarımızın adına pis söz eşidilmir.*

*Biz məzunlarımızla fəxr edirik. Və məzunlarımız da universitəmizlə fəxr etməyə layiqli məzunlardır və fəxr edirlər. Bu gün burada deyildiyi kimi, 26-cı məzunluq təntənəsidir. Bakalavr səviyyəsində, magistr səviyyəsində məzunlarımız diplom alacaqlar. Hərdən bir məzunlarımız doktor səviyyəsində də diplom alırlar. Bugünkü məzunlarımızın xeyli hissəsi artıq işlə təmin olunub. Amma biz arzu edirik ki, işlə təmin olunanlar daha da inkişaf eləsinlər, daha böyük miqyaslı işlərə girişsinlər, dünyanın hansı nöqtəsində istəsələr, gedib işləsinlər.*

*Mən hamınızı təbrik eləyirəm əziz məzunlar, əziz valideynlər. Bütün müəllimlərimizə təşəkkür edirəm. Hamınıza uğurlar arzulayıram.*




Sonra məzunlara diplomların təqdim olunması mərasimi başlandı. Diplomları universitənin prorektoru, memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Rafiq Əhmədov, universitənin prorektoru, İqtisadiyyat və menecment fakültəsinin dekanı Məhəmməd Nuriyev, Humanitar və sosial elmlər, Hüquq fakültələrinin dekanı Cabir Xəlilov, Tibb, stomatologiya və ictimai səhiyyə fakültəsinin dekanı Nigar Bağırova və Təhsil fakültəsinin dekanı Elza səmədova təqdim etdilər.

Məzunlar universitənin rəhbərliyi və öz müəllimləri ilə xatirə şəkilləri çəkdirdilər. Aparıcılar onları bir daha təbrik edib, "Qoy yolunuz açıq, işiniz avand olsun!" – dedilər.

Mərasimdə Xəzər Universitəsinin mahnı və rəqs ansamblı konsert proqramı ilə çıxış etdi.

**"Xəzər Xəbər"**

